1934 "Azərbaycan müəllimi" 2024

# "Ən böyük arzum üçrəngli bayrağımızı dünya və olimpiya yarışlarında zirvələrə qaldıraraq ölkəmizi layiqli təmsil etməkdir"



## Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən İdman təmayüllü məktəbin məzunu Paris-2024 Yay Olimpiya Oyunlarında ölkəmizə qızıl medal qazandırdı

**"Yarımfinala və finala vəsiqə qazanan zaman sosial şəbəkələrdə mənə ünvanlanmış şərhləri oxudum. Çox xoşbəxt oldum. Həm Parisdə, həm də televiziya önündə yaxınlarım görüşümü izləyirdi. Biz hər zaman qalib gələcəyik. Çünki qalib xalqın övladlarıyıq. Yaşasın Vətənimiz!"**

**"Rəqib ev sahibi olduğu üçün ona dəstək çox idi. Arenadakılar qışqırdıqca, mən də qarşımdakına qışqırırdım. Bir dəfə Fransanın Monpelye şəhərində Avropa çempionu olmuşam. Yenidən fransızlar Azərbaycan Himnini ayaq üstə dinləməli olacaqlar"**

**Azərbaycan cüdoçusu, Bakı şəhəri 277 nömrəli idman təmayüllü tam orta məktəbin məzunu Hidayət Heydərov Paris-2024 XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb.**

"Azərbaycan müəllimi" xəbər verir ki, 73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız həlledici qarşılaşmada fransalı Con Benjamin Qaba ilə üz-üzə gəlib. Rəqibinə qızıl xal bölümündə ipponla qalib gələn cüdoçumuz Olimpiya çempionu adını qazanıb və Paris-2024-də millimizin aktivinə ilk medalı yazdırıb.

Bununla da Hidayət Heydərov bu il həm Avropa, həm dünya, həm də Olimpiya çempionu adını qazanmaqla Azərbaycan idmanının tarixinə düşüb.

Olimpiadada mübarizəyə 1/8 final mərhələsindən qoşulan cüdoçumuz birinci görüşdə İsrail idmançısı Tohar Butbulu, 1/4 finalda isə kanadalı Artur Margelidonu ipponla məğlub edib. O, yarımfinalda kosovolu Akil Qyakovaya qalib gəlib.

Uşaq yaşlarından idmana böyük həvəsi olan Hidayət 6 yaşından Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Bakı şəhəri 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbində cüdo ilə məşğul olub.

Qeyd edək ki, idmançımız 12 il əvvəl "Azərbaycan müəllimi" qəzetinə arzu və hədəfləri barədə danışıb.

**Heydərov Hidayət Minayət oğlu 1997-ci anadan olub. Uşaq yaşlarından idmana böyük həvəsi olan Hidayət 6 yaşından Elm və Təhsil Nazirliyi Bakı Şəhəri üzrə Təhsil İdarəsi 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq - Gənclər İdman Məktəbində cüdo ilə məşğul olur. O, Elm və Təhsil Nazirliyi Bakı Şəhəri üzrə Təhsil İdarəsi 277 nömrəli idman təmayüllü tam orta məktəbin IX sinif şagirdidir.**






*- Hidayət, idmanı sənə sevdirən nə oldu?*

- Balaca vaxtlarımda həmişə nadinc uşaq olmuşam. Küçəyə çıxanda fikir vermədən güclü-gücsüz məhəllə uşaqları ilə döyüşürdüm. Gücüm çatmasa da, davadan qorxmurdum. Cüdo ilə bərabər futbola da marağım olub. Məhəllədə uşaqlarla futbol oynayardıq. Qohumlarımız atama deyirdi ki, bu uşağı idman məktəbinə qoyun. Bu mənim də ürəyimcə idi. Həmişə arzu etmişəm ki, güclü və tanınmış idmançı olum. Böyük uşaqların idmanla məşğul olduğunu görəndə qəlbimdən belə bir hiss keçirdi ki, kaş mən də onlar kimi idman çantamı götürüb məşqlərə gedəydim. Şükürlər olsun ki, indi artıq valideynlərim və müəllimlərimin sayəsində mən də idmanla çox ciddi məşğul oluram.

*- Səncə, yaxşı idmançı olmaq üçün nə etmək lazımdır?*

- Güclü idmançı olmaq üçün həmin idman növünə olan həvəs böyük olmalıdır. Heç vaxt ruhdan düşməmək, həmişə inadla, yorulmadan çalışmaq lazımdır. Məqsədə, arzuya çatmaq üçün mübarizə aparmalısan. Güclü rəqiblərdən qorxmamalısan.

*- Uğurların barədə nə deyə bilərsən?*

- 2008 və 2009-cu illərdən uğurlarım artmağa başladı. 2008-ci ildə cəmiyyətlər arasında və Bakı çempionatında qələbə qazandım. 2009-cu ildə 60 kq çəki dərəcəsində iki dəfə Azərbaycan çempionu olaraq beynəlxalq turnirlərə vəsiqəni özümə təmin etdim. 2010-cu ildə Tbilisi şəhərində keçirilən beynəlxalq turnirdə II yerə çıxdım. 2011-ci ildə Türkiyənin Ankara şəhərində 8 ölkənin idmançılarının iştirakı ilə keçirilən Avropa kuboku uğrunda turnirdə I yeri tutdum. Yığma komandanın tərkibində 5 dəfə Avropa kuboku və beynəlxalq turnirlərdə iştirak etmişəm. Həmin yarışların üçündə də I yerə çıxaraq qızıl medal əldə etdim, ikisində isə V yerlə kifayətlənməli oldum. Ən böyük arzum hər birimiz üçün müqəddəs olan üçrəngli bayrağımızı dünya və olimpiya yarışlarında zirvələrə qaldıraraq ölkəmizi layiqli təmsil etməkdir.



**Yığma komandanın üzvü, Əməkdar məşqçi, təcrübəli müəllim Tərlan Həsənov yetirməsi barədə deyir:**

- Hər bir müəllim kimi mən də yetirməmin uğurlarına ürəkdən sevinirəm. Hidayət səkkiz ildir ki, cüdo ilə məşğul olur. Uşaq yaşlarından idmana böyük həvəs göstərir. O, bir dəfə də olsun məşq buraxmır. Nizam-intizamlı bir idmançıdır. Yarışlarda çalışır ki, etdiyi səhvləri bir daha təkrarlamasın. Daim uğursuz fəndinin üzərində çalışır. Hidayəti digər idmançılardan fərqləndirən odur ki, o, çətin hallarda döşəkdə müqavimətini saxlaya bilir. Onun üçün güclü və gücsüz rəqib yoxdur. Heç bir rəqibdən çəkinmir. Onda psixoloji gərginlik olmur, yarışlarda çox sərbəst olur. Hidayət bu ildən yeniyetmələrin Avropa kubokuna qatılmalıdır. Ancaq o, keçən ildən buna addım atıb. O, yeniyetmə Avropa idmançıları arasında öz çəkisində birinci yerdədir. Bu yaxınlarda keçiriləcək Avropa çempionatında iştirak edəcək. Onu gələcəkdə dünya və olimpiya çempionu kimi görmək arzusundayam. Bu işdə ona uğurlar arzulayıram.

**Bakı şəhəri 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin direktoru Rüfət Eyyubov:**

- Hidayət böyüyün və kiçiyin yerini bilən idmançıdır. Həmişə təlim-tərbiyəsi ilə digərlərindən fərqlənir. Məşqlərə ciddi yanaşır. Artıq bu günə kimi kifayət qədər beynəlxalq yarışlarda ölkəmizin idman şərəfini layiqli təmsil edib. İstəyir ki, erməni idmançısı ilə rəqib kimi döşəyə çıxsın. Deyir ki, erməni idmançısını yüksək ustalıqla məğlub etsəm rahatlıq taparam.

**Ayaz Süleymanov, Bakıdakı 277 nömrəli idman təmayüllü tam orta məktəbin direktoru:**

- Hidayət Heydərov təhsilinə elə bu məktəbdə başlayıb. Nizam-intizamı və tərbiyəsi ilə müəllimlərinin hörmətini qazanıb. O, idmanla bərabər dərslərindən də yaxşı nəticələr əldə edir. Onun şəkli məktəbin həm idman, həm də şərəf lövhəsini bəzəyir. O, çox vətənpərvərdir. Azərbaycanın tarixi ilə daha yaxından maraqlanır. Məktəbdə keçirilən vətənpərvərlik mövzusunda inşa yazı müsabiqələrində həmişə fərqlənir. Məktəblərarası idman yarışlarında, hərbi-idman oyunlarında oxuduğu məktəbin adını uca edir. Vətənimizi Hidayət kimi ləyaqətlə təmsil edən, üçrəngli dövlət bayrağımızı beynəlxalq turnirlərdə zirvələrə qaldıran gənclərimizlə təkcə onların valideynləri deyil, hamımız fəxr edirik.

**Rəşad ZİYADOV**

*22 İyun 2012-ci il. - №24*